# Azad sözün ümummilli nüfuzu



**Azərbaycan milli mətbuatının 150 illik yubileyi münasibətilə paytaxtın Nəsimi Rayon İcra Hakimiyyətinin Yeni Azərbaycan Partiyası rayon təşkilatı ilə birgə təşkil etdiyi “Mətbuatımızın təşəkkülü və tarixi missiyası” adlı dəyirmi masada andilli jurnalistikamızın ötən əsryarımda xalqımızın ictimai-mədəni tərəqqisində oynadığı misilsiz rol yüksək dəyərləndirildi, nəsimililərin media ictimaiyyətinə bayram təbriki çatdırıldı.**

Nəsimi Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən, RİH başçısının müavini Zahid Xəlilov rayonla sıx əməkdaşlıq edən görüş iştirakçısı olan jurnalistləri və ölkənin media ictimaiyyətini əlamətdar yubiley münüsibətilə səmimi təbrik etdi. O, milli mətbuatımızın keçdiyi tarixi və şərəfli yoldan söz açaraq qeyd etdi ki, XIX əsrin son rübündə yarım əsrlik müstəmləkə taleyi yaşayan xalqımızın milli oyanışını və özünüdərkini hədəfə almış mətbuatımız bir neçə onillik hazırlıqdan sonra  XX əsrin əvvəllərindən dövlətçiliyin bərpası məfkurəsini yaymağa başlayıb. Bu mübarizənin öncül publisistləri 1918-ci ildə Xalq Cümhuriyyətinin qurucuları olublar. Milli hökumətin süqutundan sonrakı kommunist idarəçiliyi dövründə də jurnalistlərimiz öz sözləri ilə sivil ideyaların gerçəkləşməsinə əməli dəstək qazandırıblar.

Ümummilli lider Heydər Əliyev  hələ sovet dövründə xalqı ölkənin hərtərəfli tərəqqisinə səfərbər etməkdə mətbuatın, teleradionun rolundan yüksək səviyyədə istifadə edərək Azərbaycanı keçmiş ittifaqın ən qabaqcıl respublikalarından birinə çevirmişdi. Ulu öndərin müstəqillik illərində formalaşdırdığı dövlət media siyasətini Prezident İlham Əliyev uğurla davam etdirərək ölkəmizdə azad, demokratik medianın dünya səviyyəsində nüfuz qazanmasına və peşəkarlığının yüksəldilməsinə təminat yaradıb.

Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov, Nəsimi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Gülarə Verdiyeva və RİH başçısının müavini Ramiz Quliyev də Milli Mətbuat Günü münasibətilə jurnalistləri təbrik etdilər, paytaxtın mərkəzi rayonunda aparılan genişmiqyası yeniləşmə prosesinə onların göstərdiyi informasiya dəstəyinin önəmini vurğuladılar.

“Xalq qəzeti”nin baş redaktorunun müavini, Tahir Aydınoğlu, QHT fəalı media eksperti Səbuhi Abbasov, özəl qurumun mətbuat katibi Məhəmmədəli Qəribli və informasiya agentliyinin rəhbəri Nahid Canbaxışlı  müstəqil dövlətin azad mediasında çalışmağın şərəf və məsuliyyətini xatırladaraq, dövlətin diqqət və qayğısının, xalqın etmad və rəğbətinin jurnalistikamızın mənəvi güc qaynağı olduğunu söylədilər. Onlar səmimi təbriklərə görə razılıqlıqlarını söylədilər, mediamızın yubileyinin ümumxalq bayramı kimi qeyd edilməsinə görə minnətdarlıqlarını ifadə etdilər.

***T.RÜSTƏMLİ***
***XQ***

Xalq qəzeti.- 2025.- 22 iyul (№ 149).- S.13.